**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2004-cü il 24 may tarixli 75 nömrəli qərarı ilə təsdiq edilmiş “Dövlət büdcəsinin tərtibi və icrası Qaydaları”ndan**

# ÇIXARIŞ

## III. Dövlət büdcəsi layihəsinin tərtibi, Azərbaycan Respublikasının Prezidentinə və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdimi

3.3. Növbəti büdcə ili üzrə dövlət büdcəsinin və icmal büdcənin layihəsi və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri cari ilin sentyabr ayının 15-dək Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və **Azərbaycan Respublikasının Hesablama Palatasına** kağız və elektron daşıyıcılar formasında təqdim edilir.

## IV. Növbəti büdcə ili üzrə dövlət büdcəsinin təsdiq olunmuş göstəricilərinin büdcə təşkilatlarına çatdırılması

4.4. Növbəti büdcə ili üzrə dövlət büdcəsi mətbuatda dərc edildikdən sonra dövlət büdcəsinin gəlirlərinin və xərclərinin (funksional, iqtisadi və inzibati təsnifatların paraqrafları səviyyəsində) təsnifatı Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən **Azərbaycan Respublikasının Hesablama Palatasına** təqdim edilir.

## V. Dövlət büdcəsinin icrası və icrasına carı nəzarət

5.3. Dövlət büdcəsinin gəlirlərinin icrasını təmin edən orqanlar, habelə onların regional və yerli bölmələri Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Vergilər Nazirliyi və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə razılaşdırılmış formalara uyğun olaraq aylıq, rüblük və ilin əvvəlindən artan yekunla gəlirlərin təsnifatı üzrə hesabatları aidiyyəti üzrə Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə və ya onun yerli bölmələrinə, habelə **Azərbaycan Respublikasının Hesablama Palatasına** kağız və elektron daşıyıcılar formasında təqdim edirlər.[

5.4. Büdcə təşkilatlan və dövlət büdcəsindən və maliyyə yardımı alan təşkilatlar dövlət büdcəsi vəsaitlərindən istifadə barədə müəyyən olunmuş qaydada aylıq, rüblük və ilin əvvəlindən artan yekunla funksional, iqtisadi və inzibati təsnifat üzrə hesabatları Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə, habelə **Azərbaycan Respublikasının Hesablama Palatasına** kağız və elektron daşıyıcılar formasında təqdim edirlər.

5.5-3. Dövlət büdcəsinin icrası prosesində dövlət büdcəsinin gəlirlərinin və funksional, iqtisadi və inzibati təsnifat üzrə xərclərinin bölgüsündə dəyişiklik edildiyi təqdirdə, bu barədə məlumatlar Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən Azərbaycan **Respublikasının Hesablama Palatasına** təqdim edilir.

5.31. Dövlət büdcəsinin icrası barədə aylıq hesabat Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən hesabat ayından sonrakı ayın 25-dək tərtib olunur və Azərbaycan

Respublikasının Nazirlər Kabinetinə və **Azərbaycan Respublikasının Hesablama Palatasına** kağız və elektron daşıyıcılar formasında təqdim edilir. Hesabatda dövlət büdcəsinin icrası funksional və iqtisadi təsnifat əsasında ilin əvvəlindən artan yekunla əks etdirilir.

5.33. Dövlət büdcəsinin icrası barədə rüblük hesabat Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən hazırlanaraq növbəti rübün birinci ayının sonunadək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və **Azərbaycan Respublikasının Hesablama Palatasına** kağız və elektron daşıyıcılar formasında təqdim edilməlidir. Rüblük hesabatda başqa göstəricilərlə yanaşı, gəlir və xərclərin icrasının həmin dövr üçün təsdiq olunmuş təyinatla müqayisəli təhlili verilir. Xərclərin maliyyələşdirilməsində faktiki göstəricilərlə təsdiq olunmuş rəqəmlər arasında fərq yarandıqda, hesabatda bu fərqlə bağlı izahat və dövlət əhəmiyyətli layihələrə dair məlumatlar da əks olunur.

5.36. Dövlət büdcəsinin icrası barədə illik hesabat və müvafiq qanun layihəsi Azərbaycan Respublikasının Maliyyə Nazirliyi tərəfindən hazırlanaraq növbəti ilin aprel ayının 25-nə kimi Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Azərbaycan Respublikasının **Hesablama Palatasına** kağız və elektron daşıyıcılar formasında təqdim edilir. Hesabat özündə digər məlumatlarla yanaşı, bütün dövlət borcları, il ərzində götürülən dövlət borcları və verilən dövlət zəmanətləri, buraxılmış dövlət qiymətli kağızları və ehtiyat fondlarından il ərzində istifadə, məqsədli büdcə fondlarının və yerli gəlirlərin vergi və digər ödəniş növləri üzrə icrası haqqında məlumatları da əks etdirir.

5.39. Dövlət büdcəsinin və icmal büdcənin gəlirlərinin və xərclərinin, o cümlədən büdcədənkənar dövlət fondlarının auditi qanunvericiliyə uyğun olaraq Azərbaycan Respublikasının **Hesablama Palatası** tərəfindən aparırlar.